# Sizin kitab rəfiniz

**Dövlət Tərcümə Mərkəzinin klassik Azərbaycan ədəbiyyatının beynəlxalq fikir müstəvisində təbliği istiqamətində fransız dilində ərsəyə gətirdiyi "Les Nous divins s'ourrent sur ton visage – Imadeddin Nassimi" ("Haqq yolu mən özüm oldum – İmadəddin Nəsimi") kitabı Fransada nəşr olunub.**




Mərkəzdən bildirilib ki, Parisin məşhur "Hemispheres editions & Maisonneuve Larose" nəşriyyatında çap olunmuş kitaba dahi şairin 200-dən çox qəzəli, tuyuq və rübailəri daxil edilib. Əsərlərdə istifadə olunan bəzi mürəkkəb söz və ifadələr izah və şərhlərlə verilib.

Nəsiminin həyat və yaradıcılığını əks etdirən "Ön söz"ün və əsərlərin fransız dilinə tərcümə müəllifi tanınmış Ukrayna şairi, tərcüməçi Dmitri Çistyak, izah və şərhlərin müəllifi Püstə Axundovadır.

***




AMEA Nizami adına Ədəbiyyat İnstitutunun əməkdaşı filologiya üzrə elmlər doktoru Əlizadə Əsgərlinin "Bəxtiyar Vahabzadə: həyatı, mühiti və yaradıcılığı" monoqrafiyası çapdan çıxıb.

"Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitabın elmi redaktoru və "Milli istiqlal şairi Bəxtiyar Vahabzadə" adlı ön sözün müəllifi AMEA-nın prezidenti akademik İsa Həbibbəylidir. Nəşrin məsul redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Aygün Bağırlı, rəyçiləri fəlsəfə elmləri doktoru Rahid Ulusel və filologiya üzrə fəlsəfə doktoru Aslan Salmansoydur.

Monoqrafiyada müasir Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, dramaturq, Xalq şairi Bəxtiyar Vahabzadə (1925-2009) yaradıcılığının milli və bəşəri qaynaqları, mövzu, ideya-məzmun və bədii forma mündəricəsi, ədibin azərbaycançılıq, türkçülük və dinçilik baxışları, milli məfkurə uğrunda mücadiləsi ədəbi-fəlsəfi və ideoloji kontekstdə təhlil edilib.

***

AMEA-nın Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun alimlərinin müəllifi olduqları "Naxçıvan tarixindən səhifələr" kitabı və "Naxçıvan arxeologiyası yeni tapıntılar işığında" monoqrafiyası nəşr edilib.

Akademiyanın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərlinin "Naxçıvan tarixindən səhifələr" kitabında Naxçıvan bölgəsinin orta əsrlər dövrü tarix və mədəniyyəti, bəzi memarlıq abidələri, orta əsrlər zamanı ərazidə fəaliyyət göstərən sosial, siyasi və ideoloji mərkəzlərin tədqiqinə, erməni vandallarının törətdikləri vəhşiliklərə həsr etdiyi məqalələri toplanıb.

AMEA-nın müxbir üzvü, professor Vəli Baxşəliyevin "Naxçıvan arxeologiyası yeni tapıntılar işığında" monoqrafiyası isə alimin illərdir apardığı araşdırmaların yeni fakt və məlumatlarla təkmilləşdirilmiş nəşridir. Kitabda ilk insan məskənlərindən başlayaraq Naxçıvanın qədim abidələri, həmin abidələrdən aşkar olunmuş arxeoloji materiallar araşdırılıb, Naxçıvan arxeologiyasının müxtəlif dövrləri, ölkəmizin qədim sakinlərinin iqtisadi-mədəni əlaqələri, özünəməxsus mədəniyyəti öz əksini tapıb.




***

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutu Türk dilləri şöbəsinin müdiri filologiya elmləri doktoru, professor İsmayıl Kazımovun "Türk dillərinin intensivlik qrammatikası" kitabı çapdan çıxıb.

İnstitutun Elmi Şurasının qərarı ilə çap olunan kitabın elmi redaktorları professorlar Qəzənfər Kazımov və Mahirə Hüseynova, rəyçiləri filologiya üzrə fəlsəfə doktorları Xəyalə Mürsəliyeva və Zamiq Təhməzovdur.

Kitabda ilk dəfə türk dillərinin intensivlik kateqoriyasının leksik, qrammatik, frazeoloji və s. özəllikləri işıqlandırılıb. Dilin bütün sferalarında intensivlik əlamətinin yaranmasının səbəbləri və ifadə vasitələri müəyyənləşdirilib. Nəşrdə həmçinin fonetik, qrafik, leksik, morfoloji, sintaktik və frazeoloji vasitələrin rolu təyin olunub.




***




Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Kitabxanasının layihəsi üzrə "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasından buraxılan yeni kitab "Fikrət Əmirov. Biblioqrafiya" adlanır. Kitab unudulmaz, görkəmli bəstəkar, SSRi-nin və Azərbaycan Respublikasının Xalq artisti Fikrət Məşədi Cəmil oğlunun 100 illiyinə həsr edilib.

Biblioqrafiyaya bəstəkarın əsərləri – notları, kitabları, həmçinin həyat və yaradıcılığı haqqında materiallar, dünya milli kitabxanalarında mühafizə olunan əsərlər öz əksini tapmışdır. Sənətşünaslar, tədqiqatçılar, musiqişünaslar, kitabxanaçı-biblioqraflar və geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuş yeni nəşr özünün nəfis tərtibatı ilə də diqqət çəkir.

**Əli ƏLİYEV,**
**"Xalq qəzeti"**